Ey insanlar! Bu gördüyünüz şeyləri yalnız mənə uymanız və mənim namazımı öyrənəsiniz deyə etdim» deyə buyurdu

Əbu Həzim bin Dinardan rəvayət edildiyinə görə Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) Məscidindəki minbərin hansı ağacdan edildiyini münaqişə edən bir dəstə insan, Səhl bin Səad əs-Saidinin yanına gəlib ondan bu məsələyə aydınlıq gətirməsini istədilər. Səhl onlara belə dedi: Allaha and olsun ki, mən onun nədən düzəldiyini bilirəm. Mən onu Məscidə ilk qoyulduğu günü də, Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) ilk dəfə onun üzərinə oturduğu günü də bilirəm. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) filan qadına -Səhl, Ənsardan olan bu qadının adını söyləmişdir- bir nəfəri gödərib: "Nəccar, kölənə əmr et, mənim üçün insanlara xitab etdiyim zaman üzərinə otura biləcəyim, taxtalardan bir şey düzəltsin"- deyə buyurdu. O qadın da köləsinə minbər düzəltməsini əmr etdi. Kölə də Tarfə meşəsinin ağaclarından minbəri düzəltdi. Sonra kölə onu qadına gətirdi. Qadın da Allah Rəsuluna (Allahın salavatı və salamı onun üzərinə olsun) göndərdi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) minbərin bura qoyulmasını əmr etdi. Sonra Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) onun üzərində namaz qıldığını gördüm: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) minbər üzərində olarkən təkbir etdi, sonra yenə də minbər üzərində ikən rüku etdi. Sonra geriyə gedərək aşağıya endi və minbərin dibində səcdə etdi. Sonra yenə minbərin üzərinə qalxdı. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) namazı bitirdikdə üzünü insanlara çevirib və: «Ey insanlar! Bu gördüyünüz şeyləri yalnız mənə uymanız və mənim namazımı öyrənəsiniz deyə etdim» deyə buyurdu.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Bəzi insanlar, səhabələrdən birinin yanına gəlib Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) minbərinin nədən düzəldiyini soruşdular. Onlar bu məsələdə bir-birləri ilə mübahisə edib aralarında fikir ayrılığı düşmüşdür. Bu səhəbə onlara, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) nəccar köləsi olan Ənsarlı bir qadına: "Kölənə əmr et, mənim üçün insanlara xitab etdiyim zaman üzərinə otura biləcəyim, taxtalardan bir şey düzəltsin"- diyə buyurduğunu xəbər verdi. Qadın da Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) bu tələbini yerinə yetirib, köləsinə Tarfə meşəsinin ağaclarından Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) üçün bir minbəri düzəltməsini əmr etdi. Kölə minbəri düzəltib qutardıqdan sonra qadın onu Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) göndərdi, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) də onu məsciddə oturduğu yerinə qoyulmasını əmr etdi. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) onun üzərində belə bir namaz qıldı: minbərin üzərində təkbir etdi sonra yenə minbərin üzərində olarkən rüku etdi. Sonra üzünü arxaya döndərmədən geri addımlayaraq aşağıya endi və minbərin dibində səcdə etdi. Sonra yenə

minbərin üzərinə qalxdı. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) namazı bitirdikdən sonra üzünü insanlara tərəf çevirib belə dedi: «Ey insanlar! Bu gördüyünüz əməlləri yalnız mənə uymanız və mənim namazımı öyrənəsiniz deyə etdim».

http://www.sunnah.global/hadeeth/az/show/65096